# İnformasiya müharibəsinin qəhrəmanı

***Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistan və dünya erməniliyi üzərində triumfal qələbə qazandı. Bu müharibə təkcə döyüş meydanında yox, həm də informasiya cəbhəsində getdi. Və hər iki cəbhənin qəhrəmanı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev oldu.***

Savaş meydanında Ali Baş Komandanımız, Silahlı Qüvvələrimiz və xalqımızla birgə mübarizə aparıb qalib gəlmişdisə, informasiya cəbhəsində cəngavərlərə xas bir əzmlə təkbaşına döyüşərək zəfər çalmışdır. 44 gün çəkən müharibə dövründə Prezident İlham Əliyev 11 ölkənin 26 kütləvi informasiya vasitəsinə müsahibələr vermişdir. Beynəlxalq hüququn prinsiplərinə, tarixi həqiqətlərə və siyasi reallıqlara əsaslanma həmin müsahibələrin məzmununu təşkil edirdi. O, cəbhədə döyüşən Azərbaycan ordusu ilə yanaşı, informasiya məkanında gedən müharibədə də əzmlə, dəyanətlə mübarizə apararaq Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırırdı. Vətən müharibəsinin müzəffər sərkərdəsi kimi öz qətiyyətli yanaşmaları ilə düşmən tərəfinə, həmçinin anti-Azərbaycan mövqeli xarici qüvvələrə ismarıclar göndərməklə qələbəyə doğru gedən yolda bütün maneələrin dəf ediləcəyinə, qarşıya qoyulmuş məqsədə tam nail olunacağına əminlik yaradırdı.

Dövlətimizin başçısı müsahibələrində Azərbaycan tərəfinin daim sülhpərvər mövqe tutduğunu, ermənilərin isə illərdən bəri destruktiv mövqedə qalaraq danışıqlar prosesini tükəndirdiyini inkarolunmaz dəlillərlə sübut etmişdir. Həmçinin Ermənistanın qanunsuz silahlandırılmasını, Ermənistanda və işğal olunmuş ərazilərdə beynəlxalq terrorizm ocaqlarının fəaliyyət göstərdiyini, Azərbaycanın tarixi irsinə aid olan tarixi, dini və mədəni abidələrin erməni barbarlığı nəticəsində məhv edildiyini, hüquqi baxımdan Azərbaycana məxsus olan ərazilərdə qanunsuz məskunlaşdırmanı, münaqişənin sülh yolu ilə həllinə məsul olan Qərb dövlətlərinin ikili yanaşmasını, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin ədalətsiz və qeyri-adekvat mövqelərini ifşaedici dəlillərlə sübuta yetirərək kəskin tənqid etmişdir.

Ölkə rəhbəri informasiya müharibəsində ermənipərəst qüvvələrin səyi nəticəsində beynəlxalq ictimaiyyətdə fikir çaşqınlığı yaratmaq istəyən qüvvələri ifşa edərək, əsl həqiqətləri dilə gətirərək, dünya ictimaiyyətini məlumatlandırmağa və nəticə etibarilə inandırmağa müvəffəq olmuşdur.

Cənab İlham Əliyev müharibə dövründə xarici KİV-ə verdiyi müsahibələrində Azərbaycanın illərdir bu münaqişənin sülh yolu ilə həllini tapması üçün konstruktiv diplomatik fəaliyyət göstərdiyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır. Lakin qarşı tərəfin bu sülhpərvər yanaşmaya adekvat cavab vermədiyini xüsusi vurğulamışdır. Ermənistan illərdən bəri cəbhəyanı ərazilərdə Azərbaycana qarşı təxribatlar törətməklə bu problemin daha da dərinləşməsinə səbəb olmuşdur. Prezident bu məsələyə 2020-ci il sentyabrın 29-da "ROSSİYA-1" telekanalının "60 DƏQİQƏ" proqramında sualları cavablandırarkən toxunmuşdur: **"Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə mən dəfələrlə və başqa məsul şəxslər səviyyəsində bəyan etmişik ki, biz illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik, son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik.".**

Prezident əvvəlki müsahibələrində olduğu kimi, "ROSSİYA-1" telekanalına müsahibəsi zamanı da 30 ildən çox davam edən Qarabağ münaqişəsinin yalnız iki tərəfi olduğunu dilə gətirərək işğalçı Ermənistan ilə ərazi bütövlüyü pozulmuş Azərbaycan arasındakı problemin bu gün kəskin təzahür etdiyini ifadə etdi. Cənab Prezident Rusiya telekanalına bu barədə belə demişdir: **"Danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Münaqişənin yalnız iki tərəfi var. Bəzən münaqişədən söhbət gedəndə bütün tərəflər haqqında danışırlar. Bu, düzgün anlayış deyil. Bütün tərəflər yoxdur, yalnız iki tərəf var - Ermənistan və Azərbaycan."**

İnqilab yolu ilə hakimiyyətə gələn Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" deməklə Ermənistanın işğalçı siyasətinin bundan sonra da davam etdiriləcəyinin anonsunu vermiş oldu. Cənab Ali Baş Komandan bu təcavüzkar bəyanatın danışıqlar prosesini "kökündən baltaladığını" dilə gətirərək 07 oktyabr 2020-ci il tarixində "CNN-TÜRK" televiziyasına müsahibəsində belə ifadə etmişdir: **"Bundan əlavə, son dönəmdə Ermənistanın hərbi-siyasi rəhbərliyi həm təcavüzkar hərəkətlərlə, eyni zamanda, aqressiv bəyanatlarla danışıqlar prosesini məhv etdi. Yəni, ona çox böyük zərbə vurdu. "Qarabağ Ermənistandır və nöqtə" demək, əslində, müzakirələrə son qoymaq deməkdir."**

Cənab Prezident müsahibələrində Ermənistan tərəfinin Azərbaycana qarşı müharibəyə hazırlaşdığını, yeni torpaqlar zəbt etməyi planlaşdırdıqlarını təkzibedilməz sübutlarla ifşa etmişdir. Müharibə başlanmazdan bir neçə gün əvvəl ölkə rəhbərinin beynəlxalq kürsüdən - BMT kürsüsündən bu reallıqları dünyaya bəyan etdiyinin şahidi olduq. Sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışı zamanı cənab İlham Əliyev Azərbaycanın suveren torpaqlarının Ermənistan tərəfindən işğal edilməsini, xalqımıza qarşı etnik təmizləmənin vandalcasına həyata keçirilməsini, ermənilər tərəfindən beynəlxalq konvensiyalara zidd olaraq qanunsuz məskunlaşdırılmanı, qarşı tərəfin cəbhəyanı və xüsusən intensiv olaraq təmas xəttindən kənar ərazilərdə təxribatçı hərəkətlərə yol verdiyini, Ermənistanın açıqca Azərbaycanı müharibəyə təhriketmə hərəkətlərini, terror qruplarının işğal altında olan ərazilərdə yerləşdirilməsi məsələsini, münaqişəyə üçüncü tərəf ölkələrini cəlb etmək cəhdlərini və Ermənistan tərəfinin militarist davranışları ilə regionda yenidən müharibəyə hazırlıqlarının həyata keçirdiyini dilə gətirmişdir.

Cənab Prezident Rusiyanın RBK telekanalına müsahibəsində bu barədə demişdir: **"Xüsusən ona görə ki, biz bu hücumu gözləyirdik. Eskalasiyadan bir neçə gün əvvəl mən bu barədə BMT-nin kürsüsündən danışmışdım. Mənim çıxışımın mətninə baxa bilərsiniz. O vaxt mən demişdim ki, Ermənistan müharibəyə hazırlaşır. Ermənistanı dayandırmaq lazımdır. Bunun üçün dəlillər çox idi. Əvvələn, Ermənistanın müdafiə nazirinin keçən il Amerikada verdiyi bəyanat. Özü də o, bəyan etmişdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə hazırlaşır. Sonra Paşinyanın "Qarabağ Ermənistandır" məzmunlu bəyanatları və sair. Daha sonra Livandan olan ermənilərin nümayişkaranə şəkildə Şuşada məskunlaşdırılmasından ibarət təhrikçi hərəkətlər müharibə cinayətidir. Daha sonra Şuşada, yeri gəlmişkən, işğalçı rejimin orada mövcud olduğu müddətdə ilk dəfə qondarma "andiçmə" mərasimi keçirməklə Azərbaycan xalqının təhqir edilməsi. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentini Xankəndidən Şuşaya köçürmək cəhdi və bir sıra başqa əməllər. Bütün bunlar bizə qarşı təxribat idi. Sonra iyul hadisələri. Bizim hərbi mövqelərimizə təxribatçı hücumlar."**

Azərbaycan Prezidenti bu səpkili fikirlərini daha sonra Rusiyanın "ROSSİYA-1" telekanalına müsahibəsində də **səsləndirmişdir: "BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır. İyul ayında onlar bizim dövlət sərhədindəki yaşayış məntəqələrimizə silahlı hücum etdilər. Bu, münaqişə zonasından uzaq bir yerdir. O vaxt bir dinc sakin və bir neçə hərbi qulluqçu həlak oldu. Döyüşlər dörd gün davam etdi və Ermənistan ərazisində bizim heç bir hərbi hədəfimiz olmayıb və yoxdur. Buna görə də Ermənistan silahlı qüvvələri bizim ərazidən çıxarılandan dərhal sonra qarşılıqlı razılaşmaya əsasən atəş dayandırıldı. Daha sonra mənim dediyim kimi, təxribat qrupu bizim ərazimizə soxuldu, həmin qrup neytrallaşdırıldı. Sonra erməni tərəfi açıq-aşkar, nümayişkaranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edir, bu da müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Bunu nümayişkaranə şəkildə edirlər. Sonra onlar Şuşada – Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inauqurasiyasını keçirirlər. Bütün bunlar bizə qarşı şüurlu provokasiyalar, bizi münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etməkdir."**

Cənab Ali Baş Komandan Azərbaycan Ordusunun cəbhəboyu ərazilərdə apardığı əməliyyatları beynəlxalq hüquq sisteminə tam uyğun olaraq həyata keçirdiyini hər müsahibəsində dolğun şəkildə ifadə etmişdir. O, Azərbaycanın bu haqlı mövqeyini 31 oktyabr 2020-ci il tarixdə Almaniyanın ARD televiziyasına müsahibəsində dilə gətirmişdir. Həmin müsahibədə dövlət başçısı almaniyalı müxbirin **"Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, döyüş meydanında olacaq. Biz heç zaman mülki şəxslərə qarşı heç bir addım atmırıq və bizim bütün hədəflərimiz hərbi hədəflərdir."**

Azərbaycan Prezidenti müsahibə verərkən açıq mövqe bildirərək illərdir münaqişənin həllinə məsul olan Minsk qrupunun nəticəsiz fəaliyyətini, beynəlxalq güclər və BMT tərəfindən beynəlxalq hüququn prinsiplərinə ikili satandartlarla yanaşmalarını tənqid etmişdir. Bununla bağlı 2020-ci il oktyabrın 2-də "ƏL-CƏZİRƏ" televiziya kanalına müsahibəsi zamanı tənqidi mövqeyini bildirərək demişdir **ki, həll yolunun tapılması üçün vasitəçilik aparmaq məqsədilə Minsk qrupu artıq 28 ildir ki, fəaliyyət göstərir və heç bir nəticə yoxdur. Qeyd etdiyim kimi, əsas səbəb Ermənistanın mövqeyidir, ikinci səbəb Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid göstərilməməsi və təzyiqin olmamasıdır. Bir çox hallarda mən bu məsələni qaldırmışam və demişəm ki, Ermənistanı qətnamələrin tələblərinə əməl etməyə məcbur etmək və torpaqlarımızın boşaldılmasına başlamaq üçün ona qarşı beynəlxalq sanksiyalar tətbiq olunmalıdır.**

Cənab Prezident ermənilərin qanunsuz olaraq işğal altında saxladıqları Azərbaycan torpaqlarında məskunlaşma siyasətinə beynəlxalq təşkilatların laqeyd münasibətini belə tənqid edirdi: **"Təəssüf ki, buna heç kəs – nə Minsk qrupu, nə Avropa İttifaqı, nə də BMT reaksiya vermədi. Azərbaycanın tarixi irsinin dağıdılması, bizim mədəni, tarixi, dini abidələrin məhv edilməsi, toponimlərin dəyişdirilməsi, rayonlarımızın inzibati sərhədlərinin dəyişdirilməsi, bizim dağların, çayların və şəhərlərin adlarının dəyişdirilməsi."**



Dövlətimizin başçısı 14 oktyabr 2020 tarixində "FRANCE 24" televiziya kanalı müxbirinin Türkiyənin bu müharibədə birbaşa iştirak etməsi ilə bağlı verdiyi suala cavab olaraq bildirib: **"Türkiyənin hərbi iştirakı daha bir feyk xəbərdir. Türkiyənin hərbi iştirakı yoxdur. Biz Türkiyə istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik, bu, doğrudur... Siyasi müstəvi istisna olmaqla, Türkiyə heç bir halda prosesdə iştirak etmir."**

Prezident "CNN INTERNATIONAL" televiziya kanalının "CONNECT THE WORLD" verilişinə müsahibə verərkən bu barədə daha lakonik və qətiyyətli cavab verdi**: Bəli, türk avadanlığı var. Türk qüvvələri yoxdur.**

Türkiyənin "TRT HABER" televiziya kanalına 5 oktyabr 2020 tarixində verdiyi müsahibəsində dövlət başçısı Türkiyə-Azərbaycan dostluğuna toxunarkən qeyd etdi ki, "**Bizim qardaşlığımız əbədidir və bizim qardaşlığımız bütün sınaqlardan keçib. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünya ölkələri üçün örnəkdir.... bu gün dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkə yoxdur və bu, sadəcə olaraq, söz deyildi. Bu, ürəkdən gələn duyğulardır. Bizim birliyimiz bizim tariximizə əsaslanır, ortaq etnik köklərə, dilimizə, dinimizə, qardaşlığımıza əsaslanır..."**

CNN-TÜRK televiziyasına müsahibəsi zamanı jurnalistin **"Hara getsək - Bakıda və ya münaqişə bölgəsindəki şəhərlərdə, Tərtərdə, hər yerdə Azərbaycan bayraqlarının yanında Türkiyə bayraqlarını da görürük. Bununla bağlı nə söyləmək istərdiniz** sualına **"Bu, əslində, hər zaman belə idi. Çünki Türkiyə bizim üçün təkcə müttəfiq və ən yaxın ölkə deyil. Türkiyə bizim üçün qardaş ölkədir, necə ki, Azərbaycan Türkiyə üçün. Türkiyə bayrağı bizim üçün əziz bayraqdır, Azərbaycan bayrağı qədər əzizdir"** cavabı İlham Əliyevin qardaş ölkəyə olan sevgisinin bir daha etirafı idi.

Cənab Prezident Türkiyənin NTV telekanalına oktyabrın 15-də verdiyi müsahibədə müharibə bitdikdən sonra sülhyaratma missiyasının həyata keçirilməsində gələcəkdə Türkiyənin iştirakı ilə bağlı məsələyə toxunaraq öz qəti mövqeyini ortaya qoyaraq bir daha bəyan etdi ki, **bizim mövqeyimiz bundan ibarətdir ki, Türkiyə mütləq olmalıdır. Hansı statusda olacaq, bu, texniki məsələdir. De-fakto artıq Türkiyə var.... Türkiyə mütləq bu işlərdə fəal rol oynamalıdır və əminəm ki, oynayacaqdır.** Həmin müsahibədə Ali Baş Komandanımız Türkiyə-Azərbaycan əməkdaşlığını böyük sərvət kimi qiymətləndirərək belə demişdir: **"Türkiyə-Azərbaycan işbirliyi o qədər güclüdür, o qədər genişşaxəlidir ki, biz istənilən anda bir-birimizin yanındayıq. Baza olsa da, olmasa da, biz Türkiyəyə güvənirik, Türkiyə isə bizə güvənir... Türkiyə üçün Azərbaycan, Azərbaycan üçün Türkiyə bir nömrəli müttəfiqdir. Bu, böyük sərvətdir."**

Müharibə dövründə Fransa Prezidenti Emmanuel Makronun "Azərbyacan Türkiyə ilə birlikdə bölgəyə terrorçular gətirib" və "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə verməyəcəyik" bəyanatlarına qarşı cənab İlham Əliyev müsahibəsində öz mövqeyini sərt səkildə bildirərək Azərbaycanın haqlı mövqeyini bir daha dünya ictimaiyyətinə bəyan etmişdir.

Prezident "TRT HABER" televiziya kanalına 5 oktyabr 2020 tarixində verdiyi müsahibəsində Fransa Prezidentinin bu absurd bəyanatına cavab olaraq bildirdi ki, **Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni, həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə-yeksan ediblər. Ağdamın, Füzulinin görüntülərinə baxın. Bizim yarıdağılmış məscidlərimizdə donuz, inək saxlayır. Bütün müsəlmanları təhqir edir. Görmürlərmi bunu? Ona görə "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik" sözləri qəbuledilməzdir. Ona görə Fransa özü-özünü artıq bu bərabər üçlüyün xaricinə qoyur və biz buna səssiz qala bilmərik.**

Türkiyəli müxbirin **"Fransa Prezidenti Makronu üzr istəməyə dəvət etdiniz"** ifadəsinə dövlət başçısının cavabı isə daha cəsarətli oldu: **"Bəli, təbii, çünki bizə qarşı ittiham irəli sürdü. Olmayan şeyləri üstümüzə atdı. Bu, bizim ölkəmiz üçün qəbuledilməzdir."**

Fransa hökümətinin Ermənistan tərəfini ədalətsiz şəkildə dəstəklədiyini tənqid edərək "CNN INTERNATIONAL" televiziya kanalına verdiyi müsahibəsində **ölkə rəhbəri** təkzibedilməz faktlarla bildirdi ki, **Fransanın xarici işləri naziri Rusiyanın Ermənistana pulsuz silah verərək onu dəstəkləməsindən narahat deyil və o, bunun münaqişəni beynəlxalq bir münaqişəyə çevirəcəyini düşünmür. Lakin Türkiyə legitim, siyasi dəstəyini ifadə etdikdə bu, narahatçılıq yaradır.**

Ali Baş Komandan İlham Əliyev müsahibələrində müharibə zamanı Azərbaycana siyasi dəstək verən qonşu və tərəfdaş ölkələrə öz təşəkkürünü bildirməklə gələcək dövlətlərarası münasibətlərdə əməkdaşlıq perspektivlərini müəyyən etmiş oldu. Cənab Prezident "TRT HABER" televiziya kanalı müxbirinin Pakistan və Rusiyanın bu müharibəyə olan münasibətilə bağlı sualı cavablandırarkən qeyd etmişdir: **"Mən fürsətdən istifadə edərək, bizim digər dost-qardaş ölkələrə də təşəkkürümü bildirmək istəyirəm. Türkiyədən sonra bizə ikinci dəstək verən ölkə Pakistan oldu, ondan sonra Əfqanıstan oldu, ondan sonra daha bir neçə ölkə bizə öz dəstəyini göstərdi. Onların hər birinə, o ölkələrin prezidentlərinə təşəkkürümü bildirirəm." Rusiya dövləti ilə bağlı verilən suala cavab olaraq bildirdi ki, Rusiya bizim qonşumuzdur. Rusiya ilə münasibətlərimiz uğurla inkişaf edir. Bu gün bir çox sahələrdə Rusiya ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədədir. Hər iki ölkə bu münasibətlərə strateji tərəfdaşlıq münasibətləri kimi yanaşır və bu, birgə imzalanmış müqavilələrdə də öz təsdiqini tapır. Bu məsələ ilə bağlı Rusiya çox məsuliyyətli və böyük ölkə kimi davranır. Rusiyadan müsbət mesajlar gəlir və hər hansı bir tərəfi dəstəkləmək müzakirə mövzusu deyil."**

Rusiyalı müxbirin (RBK) **"Mən Bakıda gəzəndə çoxlu Azərbaycan bayrağı gördüm, bir qədər az, lakin yenə də çox sayda Türkiyə bayrağı gördüm və bircə dənə də Rusiya bayrağı görmədim. Bu, o deməkdirmi ki, Azərbaycanda Rusiyanın təsiri azalıb və ya Azərbaycanda insanların Rusiyaya münasibəti dəyişib?"** sualına məntiqli fikirlə obyektiv yanaşma tərzinə əsaslanaraq, dövlət başçımız belə cavab verdi: **"Rusiyanın aparıcı telekanallarında Azərbaycan xalqı, Azərbaycan Prezidenti təhqir ediləndə, əlbəttə, bunlar Rusiyanın nüfuzunu artırmır. Mən bu məsələni Rusiya rəhbərliyinin diqqətinə çatdırmışam. O mənada yox ki, bunlar bizi narahat edir, Azərbaycan cəmiyyəti və ictimai fikri Azərbaycanın daxilində formalaşır. O mənada ki, belə münasibət haçansa bizim planlarımızda müəyyən çətinliklərə gətirib çıxara bilər.... bu müddətdə Rusiya mediasında üzləşdiyimiz informasiya hücumu, əlbəttə, ictimai fikirdə Rusiyaya münasibətə böyük ziyan vurub. Düşünürəm ki, bu vəziyyəti qaydaya salmaq üçün vaxt və hər iki tərəfin rəhbərliyinin səyləri lazım gələcək."**

ABŞ-ın "FOX NEWS" televiziyası əməkdaşının 90-cı illərin əvvəllərində Azərbaycanın erməni tərəfi ilə döyüşlərdə uğursuzluq qazanaraq məğlub olması məzmunlu sualına cənab Prezidentin **"Biz müharibədə məğlub olmamışdıq. Biz döyüşü uduzmuşduq. Bu da oyektiv səbəblər üzündən olmuşdur. Birincisi, Azərbaycanda daxili qeyri-sabitlik vardı, Ermənistan da bundan istifadə etdi"** cavabı daha dolğun və dəqiq məntiqə əsaslanmışdı.

Dövlət başçısı ABŞ-ın "FOX NEWS" televiziyasına müsahibə verərkən hərbi əməliyyatlar dövründə qarşı tərəfdən olan mülki obyekt və əhalinin heç zaman hədəf seçilmədiyini əminliklə dilə gətirərək Azərbaycan tərəfinin bunu intensiv olaraq yaşadığını qeyd etdi: **"Biz mülki şəxslərə hücum etmirik. Ermənistanın Gəncə şəhərinə qarşı onlarca adamın həlak olduğu ballistik raketlərlə törətdiyi amansız hücumdan, terror aktından sonra biz açıq şəkildə dedik ki, qisas alacağıq, lakin döyüş meydanında. Biz mülki şəxslərə hücum etmirik. Biz dini məkanlara hücum etmirik. Şuşada kilsədə baş verənlər ya səhv olub, - mən artıq buna açıq şəkildə münasibət bildirmişəm, - ya da bu, bizi günahlandırmaq üçün ermənilərin özləri tərəfindən törədilib."**

Ölkə rəhbəri çıxışlarında düşmənin Ermənistan ərazisindən müharibə zonasından kənar yerləşən mülki obyekt və yaşayış evlərini xaincəsinə intensiv atəşə tutaraq qarşı tərəfi təxribata təhrik etmək məqsədi daşıdığını xüsusi vurğulamışdır. O, "HABER TÜRK" kanalına bu barədə qeyd etmişdir: **"Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər. Fəqət mən demişdim ki, bizim qisasımız ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir"** cavabını verməklə Azərbaycan xalqının necə də yüksək mənəvi dəyərlərə sahib olduğunu başa saldı.

EFE İnformasiya Agentliyinə 2020-ci il noyabrın 5-də verdiyi müsahibədə Prezident İlham Əliyev erməni barbarlığını faktlarla beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır. Qeyd etmişdir ki, **onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar və bu, sübuta yetirilib. Baxmayaraq ki, Ermənistanın baş naziri bunu onların etmədiyini dedi. Lakin bu, gülüncdür. Çünki ballistik raketin buraxılışı peyklər vasitəsilə müşahidə olunur. Hər kəs onun haradan buraxıldığını və onun hədəfinin nə olduğunu bilir. Gəncədə mülki şəxslərin yaşadığı əraziləri qəsdən iki dəfə vurdular. Onlar Bərdəyə çox dağıdıcı "Smerç" raketləri ilə iki dəfə zərbə endirdilər və yalnız bir hücum nəticəsində 21 insan öldürülmüş və 70 insan yaralanmışdır. Bir çox hücumlar olmuşdur. Onlar Tərtərdə dəfn mərasiminə zərbə vurdular, bu, tamamilə insan davranışının bütün normalarından kənar bir şeydir. İnsanlar dünyasını dəyişmiş şəxsi dəfn edəndə onlar qəbiristanlığı vurdular və dörd nəfər qətlə yetirildi. Onların kasetli bombalardan istifadə etmələri beynəlxalq media və QHT-lər tərəfindən təsdiq olunmuşdur.**

Cənab Prezidentin müsahibələrində diqqəti çəkən əsas məqamlardan biri də erməni tərəfinin bu münaqişədə ən çox səsləndirdiyi xalqların öz müqəddəratını təyin etmək iddiasına qarşı faktlara əsaslanan qəti prinsipial mövqeyi olmuşdur. Dövlət başçısı bunu "ƏL-CƏZİRƏ" televiziya kanalına müsahibədə belə ifadə etdi: **"BMT Nizamnaməsinə, Helsinki Yekun Aktına nəzər salsaq görərik ki, öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünə ziyan vurmamalıdır... Onların müstəqil Ermənistan dövləti var. Bu gün ermənilər hər yerdə yaşayırlar. Onlar Fransada yaşayırlar, onlar Amerikada yaşayırlar, onlar Rusiyada yaşayırlar, onlar Yaxın Şərqdə yaşayırlar. Qoy, onlar öz müqəddəratlarını həmin ölkələrdə istəsinlər. Qoy Dağlıq Qarabağa öz müqəddəratını təyinetmə vermək istəyən ölkələr öz torpaqlarının bir hissəsini Dağlıq Qarabağdan olan ermənilərə versinlər, onları qəbul etsinlər və orada onlara öz müqəddəratını təyinetmə hüququ versinlər. Onda baxaram onların reaksiyası necə olacaq."**

Yaponiyanın "Nikkei" qəzetinə verdiyi müsahibəsində Prezidentin **"Dağlıq Qarabağı geri qaytarandan sonra Siz Madrid prinsiplərində qeyd olunduğu kimi, onların öz müqəddəratını təyinetmə hüququna hörmət edəcəksinizmi və referenduma razılıq verəcəksinizmi?"** sualına cavabı daha qəti oldu: **"Xeyr, əlbəttə ki, xeyr. Dağlıq Qarabağda heç bir referendum olmayacaq. Biz bununla heç vaxt razılaşmayacağıq. Biz danışıqlar zamanı buna razılıq vermədik və indi ərazinin böyük bir hissəsini geri aldığımız bir vaxtda bundan söhbət gedə bilməz."**

Cənab Prezidentin müharibə dövründə verdiyi müsahibələrində ən diqqəti çəkən önəmli məqamlardan biri də regionun gələcəyi, Azərbaycan-Ermənistan münasibətlərinin perspektivi, azərbaycanlı və erməni xalqlarının gələcək birgəyaşayışı, barışığı, Qarabağ ərazisində yaşayan ermənilərin taleyi ilə bağlı verilən sualları cavablandırmaqla Azərbaycan dövlətinin sivil dəyərlərə söykəndiyini, xalqımızın isə yüksək mənəvi keyfiyyətlərə malik tolerant millət olduğunu nümayiş etdirməsidir.

Prezident "TRT HABER"ə müsahibəsində hər iki xalqın gələcək münasibətləri ilə bağlı qeyd etmişdir: **"**Ümid edirəm ki, bu işğalçı siyasətə son qoyulandan sonra bizim xalqlarımız barışacaq**lar".**

Cənab Ali Baş Komandanın müharibədən sonra həm erməni icmasının gələcək taleyi ilə yanaşı, həm də işğaldan azad olunmuş ərazilərin gələcəyi barədə nikbin fikirlər səsləndirdiyinin şahidi olduq. O, Türkiyənin "Haber Qlobal" televiziya kanalına müsahibəsində erməni vandallığının qurbanı olan işğaldan azad olunmuş vətən torpaqlarının qısa zamanda cənnətə çevriləcəyini belə dilə gətirdi: "**Biz orada şəhərlər quracağıq, biz oraya həyatı qaytaracağıq. Biz bütün dağılmış yerləri bərpa edəcəyik... Bütün o torpaqları biz cənnətə çevirməliyik. Onsuz da oranın mənzərəsi cənnətdir və uzun illər erməni tapdağının altında olmasına baxmayaraq, o torpaq canlanacaq, oraya həyat qayıdacaq, uşaqların gülüşü gələcək, insanların təbəssümü qayıdacaq. Azərbaycan vətəndaşları o torpaqlarda ləyaqətlə yaşayacaqlar."**

*Mehman İSMAYILOV,*
*politoloq*